

Əlizadə NURİ

# Və bir gün...

Bir gün yaxamızdan yapışıb
Allahı istəyəcək uşaqlar,
deyəcəklər: "Neynədiniz ONU?!"

Bir gün qucacaqsan xatirələri
soyumuş soba kimi.
Xatırlayacaqsan adımı
əski əlifba kimi.

Bir gün biləcəksən ki,
ipdən asılanlar
təkcə intihar etmir,
həm də özünü günə verir!..

Bir gün biləcəksən ki,
dənizin üstündə duman
suyu qorumaq üçünmüş...

Bir gün azacam bu meşədə,
ağaclar da gəzib tapmayacaq...

Bir gün
sənə yazdığım sevgi məktubunun içindən
məni ölü tapacaqlar...

Bir gün məzarımı qorumaqçün
başdaşım əsgər gedəcək...

Bir gün
su kimi
ayrılıqlar basacaq dünyanı.

Bir gün
hamı atıb gedəcək bu dənizi,
təkcə bu liman qalacaq.

Bir gün
bütün günlər sona yığılacaq,
əllərim dünyadan yıxılacaq...

Bir gün
dərk edəcəksən ki,
dünyadakı bütün cütlər əslində TƏKDİ.
Ən ağır ayrılıq
Allahdan ayrı düşməkdi.
...Və bir gün
Allah da yorulacaq.
Üstünə duz səpsək də,
dadı qaçacaq ümidlərin...

**AXİRƏT**

– Sənin qoçaqlığın vardı...
– Kərəmdə qaldı, qadası.
– Aydan arı idin bir vaxt...
– Hərəmdə qaldı, qadası...
– Bu dağın dumanı hanı?
– Dərəmdə qaldı, qadası...
– Hanı üzünün dərisi? –
– Hələbdə qaldı, qadası.
– Hanı başının papağı?
– Lələmdə qaldı, qadası.
– Sən bir sevgi qazanmışdın...
– Sələmdə qaldı, qadası.
– Bəs sənin vicdanın hanı?!
– Qələmdə qaldı, qadası,
...Burdan bir peyğəmbər keçdi?..
– Tələmdə qaldı, qadası...

## BU ÇAYDAN KƏDƏRDİ AXAN...

Bir xəstəyə pir olmadıq,
Tanrıyla əlbir olmadıq,
Milyon olduq, bir olmadıq –
Boş yerə saya gəlmişik.

Söykəndiyin dərddi arxan,
Sən darıxsan, dərd darıxar...
Bu çaydan kədərdi axan –
Deyirdin, suya gəlmişik?!

O ahdı, ahu deyildi,
O işıqdı, su deyildi.
...Biz istəyən bu deyildi,
Yanlış dünyaya gəlmişik...

## ALIN YAZISINDAN VURULAN

Hansı dildə sevim səni, yadelli qız,
Hansı dildə xatırlayım?..

Sənə gələ bilmirəm, –
bütün yollar xatirələrlə minalanıb...

Hamı alnından nişan almır, yadelli qız,
bu dünyada çoxu alın yazısından vurulur,
mənim də alın yazımdan
qan damır yerə...

Uşaq olanda nədənsə
daha çox qollarımın uzanmasın istəyirdim, –
sən demə, sənə görəymiş bu istək,
qollarım sənə çatsın deyə,
bütün dünyanı qucmaq istəyirdim...

...Ayrılıq sevginin qara kağızı kimi
boynunu büküb oturub evin bir küncündə.
Mən indi bildim ki,
bu dünyada
boynubüküklərin adı tək bənövşə deyilmiş...

Yollarına baxa-baxa doluxsunan pəncərəmin
altında
dibçəkdə də olsa,
bir ümid göyərdəm gərək
Sən gələnədək...

## SON

Dağ qoysan dağ üstünə,
Yenə bir dağ olacaq.

Şeir yazdığın qələm
Sənə ortaq olacaq.

Güllənin güldüyü gün
Güllər qorxaq olacaq.

...Dünyaya uşaq gəlir –
Təzə dustaq olacaq.
Daşa daş kimi baxma,
Onda yumşaq olacaq.

Bu gün hələ sazdı tut,
Sabah yanşaq olacaq.

...Əsir ölüm küləyi, –
Hamı yarpaq olacaq.

Baxma indi yerdədi,
Məzarında GÖY ÜZÜN
Elə torpaq olacaq...

## BƏXŞİŞ

Əllərini mənə bağışla ki,
Çiçəklər əkim əllərinin ətrinə.

Göz yaşlarını məni bağışla ki,
Mənim də mirvarim olsun.

Təbəssümünü mənə bağışla ki,
Geyindirim kədərimin əyninə.

...Mənə bircə ovuc torpaq bağışla, –
Vətən olum səninçün.

Üzündəki işığı mənə bağışla ki,
Təzə günəş yaradım.

Günahlarını mənə bağışla ki,
Tanrı səni bağışlasın...